# Fəxr edirəm ki, Qubadlının da azad edilməsində xidmətim olub



***2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələri sərhədboyu ərazilərdə genişmiqyaslı təxribatlara və ağır artilleriyadan, raketlərdən atəşə başlayanda könüllü olaraq ön cəbhəyə getməyi qərara aldım. Ailəmizdə heç kim etiraz etmədi. Vətənin belə çətin günlərində biz gənclərin öndə olması vacib idi. Elə bu məqsədlə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Göygöl rayon şöbəsinə yollandım. İlk günlərdən ön cəbhədə oldum. Çünki vaxtı ilə hərbi xidmətdə olarkən, bütün çətinliklərlə rastlaşmışdım, silahla davranmağı öyrənmişdim və kifayət qədər təcrübəm var idi.***

Döyüşlərə Cəbrayıl rayonunda “N” saylı hərbi hissənin ikinci tabor minaatan batareyasında başladım. Cəbrayıl, Laçın və Qubadlı rayonlarının, həmçinin ətraf kəndlərin azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirdiyimə görə möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə “Cəbrayılın azad olunmasına görə”, “Qubadlının azad olunmasına görə” və “Laçının azad olunmasına görə “ medalları ilə təltif olunmuşam.

İşğaldan azad edilmiş rayonlarımızın ildönümünün təntənə ilə qeyd edilməsi artıq ənənəyə çevrilir. Həmin gün dövlətimizin başçısı və birinci xanım işğaldan azad edilmiş rayonlarımızda olur, ictimaiyyət nümayəndələri ilə görüşür və yeni müəssisələrin, yaşayış məhəllələrinin təməlini qoyur. Növbəti səfər Qubadlıya oldu. Fəxr edirəm ki, mən də bu rayonun azad edilməsi uğrunda gedən döyüşlərin iştirakçısı olmuşam.

Ötən il oktyabrın 25-də Qubadlı düşməndən azad edildi. Dövlət başçımızın qeyd etdiyi kimi, Qubadlının azad edilməsi müharibənin gedişatında önəmli yer tuturdu. Çünki Qubadlı azad olunandan sonra Laçın istiqamətində yolumuz açıldı və bir neçə gündən sonra Laçının cənub hissəsində yerləşən kəndləri də azad etdik. Bundan sonra Laçın dəhlizini nəzarətə götürdük və artıq müharibənin taleyini həll etdik. Baxmayaraq ki, qabaqda bizi Şuşa uğrunda şiddətli döyüşlər gözləyirdi və digər yaşayış məntəqələrimizin azad olunması ilə bağlı əməliyyat planları hazırlanırdı, ancaq düşmən gördü ki, bizim qabağımızda dayana bilməyəcək.

Azərbaycan Ordusu Qubadlıdan sonra Zəfər yürüşünü şərəflə davam etdirdi. Noyabrın 8-də Şuşada Dövlət Bayrağımız qaldırıldı. İndi həmin ərazilərimizdə abadlıq işlərinə başlanılıb. Düşmən qorxusundan qeybə çəkilib. Onlar yenidən baş qaldırmağa cürət edə bilməzlər. Ali Baş Komandanımızın dediyi kimi, baş qaldırsalar, başlarının üstündə “dəmir yumruğ”u görəcəklər.

Vətən uğrunda canını qurban verənlər, sağlamlığını itirənlər heç vaxt unudulmur. Onların sosial müdafiəsinin gücləndirilməsi daim dövlətin diqqət mərkəzindədir. Möhtərəm Prezidentimiz Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə də dedi ki, azad edilmiş bütün şəhər-kəndlərimizdə bərpa işləri başa çatandan sonra şəhidlərimizin adına küçələr qoyulacaq, onların adı məktəblərə veriləcək.

Möhtərəm Prezidentimiz bildirdi ki, ölkəmizin müxtəlif bölgələrində, o cümlədən, Qarabağ–Zəngəzur bölgəsində bütün bərpa işləri başa çatandan, küçələr salınandan, məktəblər tikiləndən sonra bu da olacaq.

***Həmid QARAYEV,***
***Göygöl rayonu, İkinci Qarabağ müharibəsinin iştirakçısı***